

# Ümiddən Zəfərə...

**Bir millət o zaman sıradan çıxır ki, öz məğlubiyyəti ilə barışır. Çünki bu barışıqlıq ardınca inamsızlığı, ümidsizliyi gətirir. İnamını və ümidini itirməyin sonu isə süstlüyə, fəaliyyətsizliyə çevrilir...**

## Düşmən qarşısında tərk-silah edilən qəhrəman xalq...

Azərbaycan xalqı tarix boyu çox mübarizələrdən keçib. Ölkəsinin təbii sərvətlərini kimsədən əsirgəməsə də, səxavətlə bölüşsə də, mənfur xislətlilər buna qane olmayıb, humanistlik, qonaqpərvərlik gördükləri bu xalqın yurdundan, süfrəsindən gözlərini çəkməyiblər. Azərbaycanın torpaqları ayrı-ayrı əsrlərdə işğala məruz qalıb. Sonuncu işğal XX əsrin axırlarında baş verib. Ermənilər illər boyu sığındıqları, mehribanlıq, dostluq gördükləri azərbaycanlılara silah qaldırdılar. Səbəbi də bu idi ki, yenidən əllərinə fürsət keçmişdi. 1905-1907-ci illərdə, 1918-ci ildə olduğu kimi, bu dəfə də yaşadıqları bölgəni inqilab əhvali-ruhiyyəsi bürümüşdü. Sovet İttifaqı adlı nəhəng imperiya çökməkdə idi və can üstə, son nəfəsində axırıncı bəd əməllərini törədirdi. Bununla belə, erməni daşnaklarına qırğınlar, terror əməlləri törətmələri üçün hər cür yardım göstərirdi. Bu mənfur millət o dövrün ən yaxşı silahları ilə silahlandırılarkən azərbaycanlıların əllərindən paslı ov tüfəngləri belə alınır, düşmən qarşısında tərk-silah edilirdi. Qəhrəman bir xalqın hər yerdən amanını kəsir, əl-qolunu bağlayır, özlərini qorxaq, yazıq xalq kimi göstərən ermənilərə "vur" deyirdilər. Ancaq igid Azərbaycan övladları o çarəsiz günlərində də namərd düşmənlərin gözünün odunu alırdılar. Müstəqilliyi yenidən bərqərar etmək uğrunda mübarizə aparan, hələ ordusunu formalaşdırmamış, silah-sursat almamış Azərbaycan tarixinin ən ağır imtahanlarından birini verirdi. Əliyalın qoyulmuş xalqımız yaxşı silahlandırılmış erməni yaraqlılarının hücumlarını dəf etməyə çalışırdı.

Tariximizə Birinci Qarabağ müharibəsi adı ilə yazılan o illərdə torpaqlarımızın iyirmi faizi işğal edildi. Minlərlə azərbaycanlını ermənilər vəhşicəsinə qətlə yetirdilər. Azğın düşmən nəinki qocalara, qadınlara, uşaqlara, hətta yataqdan qalxa bilməyən ağır xəstələrə, südəmər körpələrə belə acıyıb rəhm etmədi, əzab-əziyyətlər verərək öldürdü. Birinci Qarabağ müharibəsində bir milyondan çox soydaşımız isə öz dədə-baba yurdlarını, zəhmətlə tikdikləri evlərini, isti ocaqlarını tərk etmək məcburiyyətində qaldılar. Erməni hücumlarından canlarını götürüb qaçan, qaçqın adı ilə yaşamalı olan soydaşlarımızın yurd həsrətləri on illər boyunca bitmədi, mənəvi yaraları sağalmadı. Bu dərdə, bu nisgilə tab gətirməyib dünyasını dəyişənləri gördük. Yaşlanıb ömrü son mənzilinə yetənlər oldu. Axır nəfəslərini nigaranlıq içində verdilər. Doğulduqları yurdda bir məzar yerləri belə olmadı. Yas mərasimlərinə yığışanlar onlardan çox, erməni işğalında qalan doğma yurd yerlərinə ağı dedilər, göz yaşları tökdülər.

İşğal illəri uzandı. Bu illər ərzində dünyaya gələn övladlar böyüyüb boya-başa çatdılar. Onlar yağıların tapdağı altında qalan yerləri görmədən, ayaq basmadan sevdilər. Vətən torpaqlarını gəzmədən də, orada yaşamadan da sevmək mümkündür. Çünki bu hissi insana soy kökündən gələn mənəvi bağlılıq aşılayır.

## "Qarabağ Azərbaycandır və nida"

İşğal otuz ilə yaxın davam etdi. Ermənistan silahlı qüvvələri bu illər ərzində öz mənfur niyyətlərindən əl çəkmədilər. İşğalçılar ardıcıl olaraq Azərbaycan Ordusunun mövqelərini, hətta mülki əhalinin yaşayış yerlərini iriçaplı silahlardan atəşə tutdular. Nəticədə həm əsgərlərimiz, hərbi qulluqçularımız, həm də dinc insanlarımız şəhid oldu. Mələk simalı körpələr, günahsız uşaqlar evlərində, el-obalarında düşmən gülləsinə tuş gəldilər.

Bu illərdə Azərbaycan xalqının ən böyük gücü ümid oldu. Hər bir azərbaycanlı yurd itkisinin əbədi olmayacağını, bir gün geri dönəcəyimizi, düşmənin uçurub dağıtdığı, od vurub yandırdığı evlərimizin yenidən inşa olunacağını düşünərək xəyallarını qurub yaşadı. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan xalqının arzularını, inamını ifadə edirdi. O, bütün görüşlərində və çıxışlarında Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi məsələsinə toxunur, bununla barışmayacağımızı diqqətə çatdırırdı. Dövlət başçısı qətiyyətlə bildirirdi: "Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar. Qarabağ Azərbaycandır və nida".

2020-ci ildə Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter aldı. Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti hərbi təxribatı İkinci Qarabağ müharibəsinin başlanmasına səbəb oldu. Həmin gün Prezident İlham Əliyev Azərbaycan xalqına müraciətində mənfur düşmənin bədnam niyyətini açıqladı: "Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü? İlk növbədə Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər. Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir".

Dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev həmin gün düşmənin hərbi təxribatlarının qarşısını almaq üçün qismən səfərbərlik elan etdi. Azərbaycan xalqı Vətən torpaqlarını Ermənistan silahlı qüvvələrinin işğalından azad etmək üçün sıx birləşdi.

Hələ İkinci Qarabağ müharibəsindən əvvəl də Prezident İlham Əliyev ordu quruculuğu sahəsində mühüm işlərin həyata keçirildiyini diqqətə çatdırırdı. Dövlət başçısı çıxışlarının birində demişdi: "Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır".

Müharibənin ilk günlərindən Azərbaycan Ordusu qələbə əzmi ilə irəlilədi. İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusu qarşısında Ermənistan silahlı qüvvələrinin nə qədər zəif, aciz olduğunu göstərdi. Ancaq döyüşçülərimizin üstünlüyü yalnız müasir silahlarla döyüşə girmələrində deyildi. Onlar bir yumruq kimi birləşmiş Azərbaycan dövlətinin və Azərbaycan xalqının mənəvi gücünü hər an hiss edirdilər. Prezident İlham Əliyev xalqa müraciətlərinin birində xüsusi olaraq qeyd etdi: "Azərbaycan Ordusu öz üstünlüyünü göstərir, Azərbaycan əsgəri və zabiti yüksək mənəvi-psixoloji keyfiyyətlər göstərir, mənəvi ruh göstərir. Çünki biz öz torpağımızda vuruşuruq, öz torpaqlarımızı azad edirik. Ermənistanın əsgərləri işğalçılardır. Döyüş gedən torpaq onların torpağı deyil".

Azərbaycan Ordusu düşmənin hərbi texnikasını darmadağın etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. 44 gün ərzində işğal altındakı ərazilərimizi yağılardan təmizlədi. Ermənistan ordusunun əsgərləri döyüş əməliyyatlarında mövqelərini, hərbi texnikasını, silah-sursatını qoyub qaçdılar.

İkinci Qarabağ müharibəsində Azərbaycan tarixinə Zəfər salnaməsi yazıldı. Bu qələbə Azərbaycan üçün yeni mərhələnin başlanğıcı oldu. Bu gün xalqımız o günlərdən başlanan Zəfər yolu ilə gələcəyə doğru qürurla addımlayır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***